*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

*Heydər Əliyev.*




# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 7-8 (9215-9216) | 18 aprel 2016-cı il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 40 qəpik


# AZƏRBAYCAN PREZİDENTİNİN YANINDA TƏHLÜKƏSİZLİK ŞURASININ İCLASI

**Xəbər verdiyimiz kimi, aprelin 2-də Azərbaycan Respublikası Prezidentinin yanında Təhlükəsizlik Şurasının iclası keçirilib.**

**Dövlətimizin başçısı iclasda çıxış edib.**

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

-Bu gün Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törətmişdir. Təmas xəttində yerləşən mövqelərimizə hücum çəkmişdir. Təmas xəttinə yaxın yerlərdə yerləşən yaşayış məntəqələrini atəşə tutmuşdur.

Bu silahlı təxribat nəticəsində itkilərimiz olmuşdur. Hərbiçilərimiz və mülki şəxslər həlak olmuşlar. Xahiş edirəm ki, həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad edək.

**X X X**

Həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

**X X X**

Prezident İlham ƏLİYEV: Allah rəhmət eləsin. Allah onların qohumlarına, yaxınlarına səbir versin. Yaralananlara Allahdan şəfa diləyirəm.

Göstəriş verirəm ki, Nazirlər Kabineti həlak olanların ailələrinə maddi yardım göstərmək üçün təkliflər irəli sürsün və Müdafiə Nazirliyi döyüş əməliyyatlarında fərqlənmiş, Vətən uğrunda qəhrəmancasına döyüşmüş insanları təltif etmək üçün mənə təkliflər təqdim etsin.

Bu, Ermənistanın ölkəmizə qarşı növbəti silahlı təxribatıdır. Birinci dəfə deyil ki, Ermənistan bu cür təxribatlara əl atır. Bir neçə gün bundan əvvəl Azərbaycan-Ermənistan sərhədində, Qazax istiqamətində də oxşar təxribat törədilmişdir. Bizim mövqelərimizə Ermənistanın təxribatçı qrupları hücum çəkmişlər. Bu hücum nəticəsində iki hərbçimiz həlak olmuşdur. Düşmənə layiqli cavab verilmişdir. Düşmən yerinə oturduldu.

Yəni, bunu demək istəyirəm ki, bugünkü təxribat da Ermənistanın Azərbaycana qarşı məkrli siyasətinin təzahürüdür. Bu gün erməni təxribatı Azərbaycan Ordusu tərəfindən layiqincə cavablandırıldı. Düşmənə çox böyük zərbələr endirildi. Düşmən böyük itkilər verdi. Müdafiə naziri bu gün bu məsələ ilə bağlı daha ətraflı məlumat verəcək. Deyə bilərəm ki, düşmənə sarsıdıcı zərbə vuruldu.

Bununla bərabər, bizim qəhrəman döyüşçülərimiz nəinki təxribatın qarşısını ala bildilər. Eyni zamanda, daha əlverişli hərbi mövqelərə malik oldular. Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi. Aparılan hərbi əməliyyat nəticəsində, - onu da qeyd etmək istəyirəm ki, bu əməliyyat təxribata cavab olaraq aparılmışdır, - biz böyük hərbi qələbəni qazandıq. Bu münasibətlə Ordumuzu, bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm.

Əminəm ki, bundan sonra da düşmənin bütün təxribatları cavabsız qalmayacaq. Düşmənə bundan sonra da layiqli cavab veriləcək. Azərbaycan Ordusu buna qadirdir. Azərbaycan övladları öz doğma torpağını müdafiə edirlər, Vətən uğrunda vuruşurlar, şəhid olurlar. Bütün şəhidlərimizin xatirəsi bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaq.



Ermənistanın bu hərəkətlərinin də səbəbi mənim üçün sirr deyil. Mən dəfələrlə həm Azərbaycan ictimaiyyətinə, həm bu məsələ ilə bağlı olan vasitəçilərə, vasitəçilik edən ölkələrin başçılarına öz fikirlərimi bildirmişdim. Ermənistan sülh istəmir. Ermənistan işğal edilmiş torpaqlardan çəkilmək istəmir və bütün səyləri ona yönəldib ki, status-kvonu maksimum saxlaya bilsin. Bu sözlərin kifayət qədər çox sübutları var. Danışıqlar prosesi iyirmi ildən artıqdır ki, aparılır. Bu iyirmi il ərzində həlledici məqamlarda Ermənistan həmişə təxribatlara əl atırdı. Təmas xəttində Ermənistan tərəfindən daim gərginlik yaradılır. Eyni zamanda, keçən əsrin sonlarında Ermənistan parlamentində terror aktının törədilməsi də məhz bu məqsədi güdürdü ki, münaqişə ilə bağlı mümkün olan razılaşmanı əngəlləsinlər və beləliklə, status-kvonu saxlaya bilsinlər.

Xatırlayırsınız, 2014-cü ildə Fransa Prezidenti cənab Olland Parisdə Ermənistan və Azərbaycan prezidentlərinin görüşünü təşkil etmişdi. Görüş çox konstruktiv şəraitdə keçmişdi və görüşün nəticəsi ümidlər verirdi. Orada biz, eyni zamanda, təmas xəttində təhlükəsizlik, etimad tədbirlərinin gücləndirilməsi haqqında danışırdıq. Ancaq o görüşdən iki həftə keçməmiş Ermənistan işğal edilmiş torpaqlarda - Ağdam rayonunun ərazisində özlərinin dediyi kimi, 47 min şəxsi heyətin iştirakı ilə hərbi təlimlər keçirməyə başlamışdı. Bu, sırf təxribat xarakterli bir addım idi. Bunun nə mənası var idi? Xüsusilə Parisdə keçirilmiş uğurlu sayılan görüşdən sonra.

Bir neçə gün Azərbaycan Ordusu özünü çox təmkinlə aparırdı. Mən də göstəriş vermişdim ki, biz təxribatlara uymayaq. Ancaq ondan sonra düşmən daha da azğınlaşmışdır, bizim mövqelərimizə hücum çəkmişdir, hərbi helikopterləri işə salmışdır. Azərbaycan Ordusu helikopterin birini məhv etmişdir. Bu, Ermənistana lazım idi. Onların təxribatı idi. Lazım idi desinlər ki, Azərbaycan atəşkəsi pozur. Azərbaycan burada özünü aqressiv aparır və sair.

Bugünkü təxribat da, bax, bu mənbədən gələn təxribatdır. Yenə də bizim mövqelərimizə hücum çəkirlər. Bizim əsgərlərimiz, zabitlərimiz həlak olur. Ondan sonra Azərbaycan Ordusu onların başını əzir və indi dünyaya hay-haray çəkirlər ki, Azərbaycan atəşkəsi pozur. Biz atəşkəsi pozmamışıq, biz sadəcə olaraq təxribata layiqli cavab vermişik. Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq.

Ermənistanın əsas məqsədi status-kvonun dəyişməz qalmasıdır. Əfsuslar olsun ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının çoxsaylı bəyanatları Ermənistan rəhbərliyinə heç bir təsir göstərmir. Bu bəyanatlar ondan ibarətdir ki, ABŞ, Rusiya və Fransa dövlətlərinin başçıları dəfələrlə bildirmişlər: status-kvo qəbuledilməzdir, dəyişməlidir və məsələ tezliklə öz həllini tapmalıdır.

Status-kvonun dəyişdirilməsi o deməkdir ki, işğalçılar işğal edilmiş torpaqlardan çıxmalıdır. Ermənistan rəhbərliyi bunu istəmir. Əsas məsələ bundan ibarətdir. Onlar istəyirlər ki, bu, sonu olmayan prosesə çevrilsin. İstəyirlər ki, danışıqlar bundan sonra da iyirmi il davam etsin. Onlar özlərini danışıqlar masası arxasında qeyri-səmimi aparırlar. Bu yaxınlarda Rusiya Prezidenti və Rusiyanın xarici işlər naziri digər həmsədrlərlə birlikdə müəyyən təkliflər irəli sürmüşlər. Biz bunu alqışlayırıq. Həm görüş əsnasında və rəsmi bəyanatlarda Azərbaycanın ərazi bütövlüyü ilə bağlı öz fikirlərini bildirmişlər.

Azərbaycanın ərazi bütövlüyünə böyük dəstək göstərilmişdir. Görüşlər onu göstərir ki, Amerika tərəfi münaqişənin tezliklə həll olunması üçün çox maraqlıdır. Bilirəm ki, Ermənistan rəhbərinə də müəyyən siqnallar, mesajlar verilmişdir. Yəni, son vaxtlar həmsədrlər, onların dövlətlərinin başçıları çalışırlar ki, məsələ həll olunsun. Nüvə Sammiti hələ başa çatmamış Ermənistan bu çirkin təxribatı törədir, sülh prosesinə çox böyük zərbə vurur. Bundan istifadə etməyə çalışır ki, Azərbaycanı günahlandırsın.

Onların sərəncamında olan satqın kütləvi informasiya vasitələri, satqın siyasətçilər, korrupsiyaya uğramış politoloqlar, şərhçilər indi sıraya düzülüblər ki, Azərbaycanı ittiham etsinlər. Əgər indi bəzi ölkələrin mətbuatına nəzər salsanız, görərsiniz ki, birtərəfli məlumat gedir. Azərbaycan ittiham olunur. Döyüşlərlə bağlı təhrif edilmiş məlumatlar verilir.

Ermənistan ordusu bu gün çox böyük zərbə almışdır. Atəşkəs rejimindən sonra ilk dəfədir ki, onlara belə sarsıdıcı zərbə vuruldu. Bunun günahkarı onlar özləridir. Ancaq çalışırlar ki, həm ictimai rəyi çaşdırsınlar, itkiləri gizlətsinlər. Eşitdiyimə görə, Ermənistan rəhbəri ictimaiyyətə itkilərlə bağlı qeyri-dəqiq məlumat ötürməyə çalışır. Bu, açıq-aydın onu göstərir ki, bunlar sadəcə olaraq öz xalqını aldatmaq istəyirlər. Bu gün Ermənistan tərəfi bütün imkanlardan - diaspor təşkilatlarından, müxtəlif ölkələrdə onların agentlərindən, korrupsiyaya uğramış siyasətçilərdən istifadə edir ki, bütün günahı Azərbaycanın boynuna qoysun.

Bizim heç bir günahımız yoxdur. Biz sadəcə olaraq bu təxribata cavab vermişik. Düz də etmişik. Bizə qarşı yenə təxribat törədilərsə onlar yenə də öz cəzalarını alacaqlar. Bu, bir. İkincisi, biz öz torpağımızda vuruşuruq. Biz Ermənistan torpağını işğal etməmişik. Biz öz torpağımızda vuruşuruq. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm.

Ermənistan bütün beynəlxalq normaları pozubdur. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur, digər təşkilatların qərar və qətnamələrini saymır. İşğal edilmiş torpaqlarda bütün binaları, tarixi, dini abidələrimizi vəhşi kimi dağıdıb. ATƏT-in faktaraşdırıcı missiyası işğal edilmiş torpaqlarda iki dəfə olmuşdur. Onların məlumatları bizdə var. Bizim məscidlərimiz, qəbirlərimiz, tarixi abidələrimiz, binalarımız, muzeylərimiz dağıdılıb. Bütün qiymətli əşyalar talan edilib. Bu, misli görünməmiş vəhşilikdir. Bu gün İrəvanda ən yüksək kabinetlərdə oturan cəlladlar vəhşicəsinə Xocalı soyqırımını törətmişlər. Onlar bunun cavabını verməlidirlər, yoxsa yox?!

Biz səbir, dözümlülük, konstruktivlik göstəririk. Baxmayaraq ki, biz 20 ildən artıqdır atəşkəs rejimində yaşayırıq. Yenə də çalışırıq ki, məsələ sülh yolu ilə öz həllini tapsın. Mən bunu dəfələrlə bəyan etmişəm, bu gün də deyirəm ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Biz müharibə istəmirik. Biz istəmirik ki, qan tökülsün. İstəmirik ki, gənc insanlar həlak olsunlar. Biz istəmirik ki, anaların göz yaşları tökülsün. Azərbaycan, Ermənistan analarının göz yaşları tökülməsin. Ancaq biz öz haqqımızı tələb edirik.

Bir daha demək istəyirəm ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Ancaq həll etmək istəyirik. Biz bundan sonra da sonu bəlli olmayan prosesdə sadəcə olaraq görüntü naminə iştirak etmək fikrində deyilik. Bunu vasitəçilərə də demişik, bunu Ermənistan tərəfi də bilir. Ona görə də məsələnin sülh yolu ilə həlli üçün Ermənistan işğal edilmiş torpaqlardan çıxmalıdır. Bunun başqa yolu yoxdur. Əgər Ermənistan rəhbərliyi öz xalqının gələcəyini düşünürsə, bu addımı atmalıdır. Ermənistanda hökm sürən kriminal diktatura rejimi öz ölkəsini uçuruma aparır. Ermənistanda demoqrafik vəziyyət kritik həddə çatıbdır. İqtisadiyyat dağılıb, bütün azadlıqlar tapdalanır, diktatura hökm sürür. Kriminal rejim ilk növbədə erməni xalqının qənimidir. Ona görə onların gələcəyi yalnız qonşu ölkələrlə normal münasibətlərdən keçir. Ancaq hansı normal münasibətlərdən söhbət gedə bilər ki, XXI əsrdə qonşu ölkənin torpaqlarının 20 faizini işğal edəsən, soyqırımı törədəsən, sonra isə soyqırımına məruz qalan xalqı günahlandırasan ki, atəşkəsi pozur.

Mən bir daha demək istəyirəm ki, Azərbaycanın prinsipial mövqeyi var. Bizim ərazi bütövlüyümüz danışıqlar mövzusu deyil, olmayıb və heç vaxt olmayacaqdır. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. O ki qaldı Dağlıq Qarabağda yaşayan erməni əhalisinə, onlar gələcəkdə Azərbaycan vətəndaşları kimi Azərbaycanda rahat yaşaya bilərlər. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Azərbaycan bir çox ölkələr üçün nümunədir, multikulturalizm məkanıdır, tolerantlıq diyarıdır.

Bütün münaqişələr öz həllini bir prinsip əsasında tapmalıdır. Xalqların öz müqəddəratını təyinetmə prinsipi ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və Helsinki Yekun Aktı məhz bunu diktə edir. Ona görə bir daha demək istəyirəm ki, biz münaqişənin həlli ilə bağlı öz prinsipial mövqeyimizdən dönməyəcəyik. Bununla bərabər, biz danışıqlara sadiqik, bundan sonra da çalışacağıq ki, bu münaqişə sülh yolu ilə öz həllini tapsın. Bununla bərabər, biz Ordumuzun gücünü daha da artıracağıq. Ona görə artıracağıq ki, bax, bu təxribatlar, erməni təxribatları cavabsız qalmasın. Hesab edirəm ki, bu gün - aprelin 2-si onlar üçün yaxşı dərs olacaqdır.

**X X X**

Sonra müdafiə naziri Zakir Həsənov məruzə etdi.

# 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr müzakirə olunmuşdur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş geniş iclasındakı nitqindən irəli gələn vəzifələr Qazax rayon İcra Hakimiyyəti Başçısı yanındakı Şuranın iclasında ətraflı müzakirə olunmuşdur.**

İclasda ilk öncə Ermənistanın silahlı təxribatının qarşısı alınarkən qəhrəmancasına şəhid olmuş Azərbaycan hərbçilərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov iclası giriş sözü ilə açaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası barədə ətraflı məlumat vermiş və məruzə ilə çıxış etmişdir.

Bildirilmişdir ki, aprel ayının 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş iclası keçirilmişdir. İclasda ölkə başçısı cari ilin ilk üç ayı ərzində Azərbaycanda həyata keçirilmiş genişmiqyaslı işlərə, qazanılan uğur və nailiyyətlərə öz münasibətini bildirmiş, qarşıda duran vəzifələrdən danışmışdır.

Ölkə başçısı öz çıxışında qeyd etmişdir ki, birinci rübdə iqtisadi islahatlar daha da sürətlə aparılmışdır. 2016-cı il dərin iqtisadi islahatlar ili olacaqdır.

Birinci rübün iqtisadi göstəriciləri o qədər də müsbət deyil. Ümumi daxili məhsul aşağı düşübdür. Bu da təbiidir. Biz bunu gözləyirdik. Ancaq hesab edirəm ki, ümumi daxili məhsul artmalıdır. Bunu deməyə əsas verən odur ki, ilin birinci rübündə Azərbaycanda qeyri-neft sənayesi 5 faizdən çox artmışdır.

Neftin qiymətinin 3-4 dəfə düşməsinə baxmayaraq, Azərbaycanda maaşlar və pensiyalar 10 faiz artırılıb. 37 min yeni iş yeri yaradılmışdır. Onlardan 31 mini daimi iş yeridir.

Biznes mühitinin yaxşılaşdırılması üçün sahibkarlara daha da böyük dəstək vermək istiqamətində çox önəmli addımlar atılmışdır. Buna misal olaraq onu göstərmək olar ki, 2015-ci ilin birinci rübündə 19 min 300 yoxlama, bu il isə sahibkarlıq subyektlərində vergi istisna olmaqla, cəmi 34 yoxlama keçirilmişdir.

Kənd təsərrüfatının inkişafı bizim üçün həmişə prioritet olub, indiki şəraitdə bunun önəmi daha da artır. Ümumi dünya iqtisadi böhranına baxmayaraq, birinci rübdə Azərbaycanda kənd təsərrüfatının istehsalı 2,7 faiz artıb.

2016-cı ilin birinci rübü rayonumuz üçün uğurlu olmuşdur.

Qazax rayonu üzrə 2016-cı ilin yerli gəlir və xərclərinin proqnozu 19670799 manat məbləğində müəyyənləşdirilmişdir. Büdcənin mədaxil hissəsinin 6614000 manatını yerli daxilolmalar, 13056799 manatını isə mərkəzləşdirilmiş xərclərdən alınacaq dotasiya təşkil etmişdir. Mədaxil hissədə yerli daxilolmalar 33,6 faiz, dotasiya isə 66,4 faiz olmuşdur.



2016-cı ilin birinci rübündə yerli daxilolmalar 1329414 manat proqnoza qarşı 1356868 manat və ya 102,1 faiz yerinə yetirilərək büdcəyə 27459 manat çox vəsait mədaxil olmuşdur. Mərkəzləşdirilmiş xərclərdən alınası dotasiya 3238000 manat icra olunmuşdur. (130,7%)

2016-cı ilin 3 ayında yerli xərclər 96,0 faiz və ya 172377 manat az icra olunmuşdur. İcra zamanı ilk növbədə əməkhaqqı və ona bərabər tutulan zəruri xərclərin ödənilməsinə üstünlük verilmişdir. Cəmi yerli xərclər 4295880 manata qarşı 4123503 manat yerinə yetirilmişdir.

Rayon ərazisində 7 özəl bank filialı, 1 özəl bank şöbəsi, 1 kredit ittifaqı və 4 bank olmayan kredit təşkilatı fəaliyyət göstərir. 2016-cı ilin 3 ayı ərzində əhaliyə 1099024 manat və 693000 ABŞ dolları kredit verilmişdir ki, bunun da hamısı qısamüddətlidir.

Əhalidən 154618 manat və 202583 ABŞ dolları əmanət cəlb olunmuşdur. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 9 layihə üzrə, biri sənaye məhsulları, səkkizi isə kənd təsərrüfatı məhsulları istehsalı olmaqla 101 min manat (15 iş yeri) kredit verilmişdir.

Dövlət Sosial Müdafiə Fondunun Qazax rayon şöbəsi tərəfindən əhalinin pensiya və müavinətlərinin ödənilməsi üçün 2016-cı ilin 3 ayında ödəniş müəssisələrinə 7156400 manat vəsait köçürülmüşdür. Bu isə keçən ilin müvafiq dövrünə nisbətən 309000 manat çoxdur. Şöbədə 2016-cı ilin 3 ayında sosial sığorta haqları üzrə yığım proqnozu 78,4 faiz yerinə yetirilmişdir. Bu göstərici büdcə təşkilatları üzrə 810100 manat proqnoza qarşı 872000 manat, yəni 107,0 faiz, qeyri büdcə təşkilatları və fiziki şəxslər üzrə isə 247200 manata qarşı 167700 manat toplanmaqla 67,4 faiz yerinə yetirilmişdir.

2016-cı ilin birinci rübündə Qazax rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 1976732 manat aylıq müavinət və birdəfəlik müavinət təyin edilmiş və ödənilmişdir. Ötən 3 ay ərzində Mərkəz tərəfindən 1.466 ailəyə ünvanlı sosial yardım təyin edimiş, həmin ailələrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 691356 manat vəsait ödənilmişdir.

Hesabat dövrü ərzində əhalinin elektrik enerjisi və təbii qaz yanacağı ilə təmin olunması sahəsində də müəyyən işlər görülmüşdür.

2016-cı ilin birinci rübündə Qazax Elektrik şəbəkəsi tərəfindən 10 kv hava xəttində 13,28 km, 0,4 kv hava xəttində 7,21 km uzunluğunda cari təmir işləri aparılmış, 152 ədəd yararsız dayaqlar yenisi ilə əvəz edilmiş və 107 ədəd transformator cari təmir olunaraq sxemaya qoşulmuşdur. Əhali tərəfindən 194 yeni tikilmiş evlərə sayğaclar quraşdırılmış, 1,92 km uzunluğunda giriş xətləri çəkilərək gərginlik verilmişdir.

*(Davamı səh.2-də)*

# 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr müzakirə olunmuşdur

*(Əvvəli səh.1-də)*

Daş Salahlı kəndində yerləşən "Avey" hərbi postuna 51 ədəd dayaq quraşdırılmaqla 3,5 km uzunluğunda xətt çəkilərək elektrik enerjisi verilmişdir.

Ötən dövrdə əhaliyə satılan enerjinin dəyəri 566502 manat, toplanan vəsait isə 536403 manat olmuşdur. Cəmi yığım 82,9 faiz, o cümlədən yerli əhali üzrə 94,7 faiz yerinə yetirilmişdir.

Bildiyiniz kimi Qazax rayonunun bütün yaşayış məntəqələri təbii qazla təmin olunmuşdur. Rayon Qaz İstismar Sahəsi tərəfindən 3 ayda əhali abonentlərə satılmış qazın dəyəri 1614139 manat olmuş, 1312562 manat (81,32%) vəsait yığılmışdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 2.586 manat çox vəsait toplanmışdır.

Qazax Telekommunikasiya Qovşağı cari ilin 3 ayında 2015-ci ilin birinci rübü ilə müqayisədə 11063 manat artıq vəsait toplayaraq planı 101 faiz yerinə yetirmişdir. 10 ailəyə yeni telefon çəkilmiş, 14 ədəd telefon şəbəkəyə bərpa olunmuşdur.

Hesabat dövründə Qazax Poçt filialı tərəfindən əhalidən enerji, qaz, su və telefon pulları qəbul edilərək aidiyyəti təşkilatların bank hesablarına köçürülmüş, plan tapşırıqları 137 faiz yerinə yetirilmişdir. Filial tərəfindən 224 ədəd bağlama qəbul edilmiş və 108 ədəd bağlama müxtəlif ünvanlara göndərilmişdir. 2016-cı ilin sonuna Qazax poçtunun bütün şöbələri post-terminarlarla təmin olunacaqdır.

Qazax-Avtovağzal ATSC-i 2016-cı ilin birinci rübündə plana 102 faiz əməl edərək 47000 sərnişinə xidmət göstərmişdir.

Qazax Su-Kanal idarəsi tərəfindən 2016-cı ilin 3 ayında 5895 abonentə xidmət göstərilmiş və 101559 manat vəsait toplanmışdır. Bu isə satışın 89,8 faizini təşkil edir. Təşkilat tərəfindən 1 ədəd subartezian nasosu yenisi ilə əvəz olunub, 3 ədəd su mühərriki və 1 ədəd su mühərrikinin nasos hissəsi əsaslı təmir olunmuşdur.

Ölkə Prezidentinin tapşırığı əsasında işsizliyin aradan qaldırılması məqsədilə 2016-cı ilin fevral ayından abadlıq və quruculuq işlərinin aparılması məqsədilə Kommunal Müəssisələri Kombinatında 100 nəfər işlə təmin olunmuşdur.

Qazax Mənzil İstismar Sahəsi tərəfindən balansında olan 19 çoxmənzilli binanın blok və fasadlarında təmir işlərinin yerinə yetirilməsi üçün 95 nəfər suvaqçı və rəngsaz işə qəbul edilmiş, hazırda iki binanın fasadında və beş binanın bloklarında təmir işləri aparılır. Mənzil İstismar Sahəsi ötən 3 ay ərzində iki binanın dam örtüyündə köhnə azbest şiferlər yeni metal kirəmitlərlə əvəz etmiş, vətəndaşlardan 100,6 faiz mənzil xidmət haqqı toplamışdır.

2016-cı ilin 3 ayı ərzində rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələri tərəfindən də bir sıra işlər görülmüşdür.

Rayon Təhsil şöbəsinin tabeliyində olan 34 tam orta, 6 orta ümumtəhsil, 7 ibtidai məktəbdə 11439 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1743 nəfər müəllim məşğul olur.

2016-cı ilin yanvar ayında keçirilən fənn olimpiadalarının rayon turunda 308 nəfər şagird iştirak etmişdir. Gəncə şəhərində keçirilən zona mərhələsində yüksək yer tutmuş 2 nəfər şagird aprel ayında Bakı şəhərində keçiriləcək respublika turunda iştirak edəcəklər.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93 illiyi ilə əlaqədar olaraq tədbirlərə start verilmiş, rayonun IX-XI sinif şagirdləri arasında "Heydər Əliyev uşaqların gözü ilə" şagirdlərin təqdimatı işində Hüseynbəyli kənd tam orta məktəbin X sinif şagirdi İsmayıl Zamanov birinci yeri tutumuş və Təhsil Nazirliyində təqdimatların müsabiqəsində iştirak etmişdir.

Rayon Mədəniyyət və Turizm şöbəsi 2016-cı ilin 3 ayında rayonda bayram konsertləri, şənliklər keçirmiş, əlamətdar günlər münasibətilə 17 mədəni-kütləvi tədbirlər təşkil etmişdir.

Hesabat dövründə rayonun səhiyyə müəssisələrində ambulator gəlişlərin sayı 41356 nəfər olmuş, 1627 nəfər isə flüoqrafik və rentgen müayinəsindən keçirilmişdir. 3 ay ərzində 86 nəfər şəkərli diabet, 10 nəfər vərəm, 20 nəfər onkoloji xəstə aşkar edilərək dispanser qeydiyyata götürülmüşdür.

Dövlət başçısı İlham Əliyevin tapşırığına əsasən ölkəmizdə əhalinin tibbi müayinədən keçirilməsi aksiyası Qazax rayonunda da uğurla davam etdirilir. Rayon İcra Hakimiyyəti Başçısının sərəncamı ilə yaradılmış komissiya əhali arasında təbliğat, təşviqat və məlumatlandırma işləri aparır. Bunun nəticəsidir ki, əhali aksiyada mütəşəkkil sürətdə iştirak edirlər. Müayinə nəticəsində 1261 nəfərə ambulator, 137 nəfərə stasionar müalicə kursu təyin olunmuş, 22 nəfər isə Bakı şəhərinə müalicəyə göndərilmişdir.

Qazax Müalicə Diaqnostika Mərkəzinə 3 ay ərzində 5716 ambulator gəliş olmuş, mərkəzdə 14788 ümumi müayinə olunmuş, 176 cərrahi əməliyyat aparılmış və hemodializ şöbəsində 65 xəstəyə 1969 hemodializ seanslar tətbiq olunmuşdur.

Rayon Gənclər və İdman idarəsi tərəfindən 2016-cı ilin 3 ayında gənclərlə iş sahəsi üzrə 6, bədən tərbiyəsi və idman sahəsi üzrə 9 tədbir keçirilmişdir. Keçirilən tədbirlərdə gənclərin bütün təbəqələri təmsil olunmaqla 1541 nəfər yeniyetmə və gənc iştirak etmişdir. Hesabat dövründə beynəlxalq yarışlarda 3, Respublika yarışlarında 21 nəfər idmançımız mükafata layiq yerlər tutmuşdur.

2016-cı ilin birinci rübündə rayon üzrə əsas kapitala yönəldilən investisiyaların həcmi 400000 manat, ümumi məhsul buraxılışının həcmi 26214000 manat olmuşdur ki, bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Sənaye məhsulunun ümumi həcmi 3150000 manat keçən ilə nisbətən 0,4 faiz çox, kənd təsərrüfatı məhsullarının həcmi 9120000 manat 2015-ci ilə nisbətən 1,8 faiz çox olmuşdur. Adambaşına düşən ümumi məhsulun həcmi 277 manat, orta aylıq əməkhaqqı 275 manat olmuşdur.

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ilə əlaqədar Qazax rayonunda davamlı surətdə yeni iş yerləri açılır. Birinci rübdə 5 yeni müəssisə yaradılmış, 177-si daimi olmaqla 665 yeni iş yeri açılmışdır. 2016-cı ilin 3 ayı ərzində Qazax Məşğulluq Mərkəzinə 8 dövlət və 1 qeyri-dövlət müəssisələrindən 269 boş iş yeri təqdim edilmiş, müraciət etmiş 1470 nəfər vətəndaşlardan 685 nəfəri iş axtaran kimi qeydiyyata alınmış, 623 nəfər münasib işlə təmin olunmuşdur.

Rayonda "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa, quruculuq işləri ötən ildə olduğu kimi 2016-cı ilin birinci rübündə də davam etdirilmişdir.

Qazax şəhərinin prospekt və küçələrində yeni işıqlandırma sistemlərinin quraşdırılması işləri davam etdirilir.

Rayonda Kənd Təsərrüfatı idarəsi üçün inşa edilən iki mərtəbəli, mansardlı binanın tikintisi başa çatdırılmışdır.



Heydər Əliyev Fondunun dəstəyi ilə Qazax şəhərində müasir tələblərə cavab verən Tarix Diyarşünaslıq muzeyinin tikintisi davam etdirilir.

Bərpa Agentliyi tərəfindən Yuxarı Salahlı kənd tam orta məktəbdə əsaslı təmir işlərinə başlanılmışdır.

Respublika Prezidentinin Sərəncamına uyğun olaraq 2015-ci ildə qazılmış 9 ədəd subartezian quyuları yaxın vaxtlarda istifadəyə veriləcəkdir. 2016-cı ildə 5 ədəd qazılacaq subarteian quyularının əraziləri müəyyənləşdirilmiş, hazırda layihələndrimə işləri aparılır.

Ölkə Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq Qazax rayonunun Qazaxbəyli kəndi ərazisində 304 məcburi köçkün ailəsinə bütün infrastrukturlarla birlikdə yeni qəsəbənin tikintisi başa çatdırılmışdır. Hazırda həmin binalarda mənzillə təmin olunmuş qaçqın və məcburi köçkün ailələri mənzillərə köçürülür.

Qızıl Hacılı kəndinin sakinləri üçün Nazirlər Kabinetinin 3 mart 2015-ci il tarixli 77s saylı Sərəncamı ilə 19,4 hektar torpaq sahəsinin təyinatı dəyişdirilmiş, 78 ailəyə fərdi yaşayış evlərinin bütün infrastrukturlarla birlikdə tikilməsi məqsədilə sənədləşmə işləri aparılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 374s saylı Sərəncamına uyğun olaraq köhnə mərkəzi rayon xəstəxanasının yerində yeni 145 çarpaylıq Mərkəzi rayon Xəstəxana Kompleksinin tikintisinə başlanılmışdır. Hələlik müvəqqəti olaraq işlər dayandırılmışdır. Yaxın vaxtlarda işlərə başlanılacaqdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ və şəhid ailələri üçün fərdi qaydada tikilməsi nəzərdə tutulmuş 14 yaşayış evindən 8 yaşayış evi istifadəyə verilmiş, 6 yaşayış evlərinin tikintisi davam etdirilir.

Dövlət Proqramına uyğun olaraq Qazax şəhərində tikintisi nəzərdə tutulmuş 100 yerlik körpələr evi-uşaq bağçasının tikintisi üçün layihə-smeta sənədləri hazırlanmış və baxılmaq üçün Fövqəladə Hallar Nazirliyinin Ekspertiza şöbəsinə göndərilmişdir.

Qazax şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması işlərinə başlanılacaqdır.

Qazax-Kosalar avtomobil yolunun tikinti işlərinə başlanılması nəzərdə tutulmuşdur.

Rayonun kənd yaşayış məntəqələrində 43 km uzunluğunda kənddaxili yollara qum-çınqıl döşənmiş, bu istiqamətdə işlər davam edir.

Məzəm və Quşçu Ayrım kənd sakinlərinin rayon mərkəzinə təhlükəsiz gediş və gəlişini təmin etmək məqsədilə Qazax-Quşçu Ayrım avtomobil yolunun Alpout kəndi ilə Quşçu Ayrım kəndini birləşdirən hissəsində alternativ olaraq ikinci yolun çəkilişi işləri davam edir.

Bərpa Agentliyi tərəfindən Bala Cəfərli və Məzəm kəndlərində dinc əhalinin təhlükəsizliyinin təmin etmək məqsədilə 428 p/m istinad divarlarının inşası başa çatmışdır.

Qazax Sement zavodunun ikinci hissədə klinker istehsalı üzrə tikinti işləri davam etdirilir.

Hər birinin illik istehsal gücü 50 min ton olan "Mətanət A" şirkəti tərəfindən Daş Salahlı kəndində və "Carçıoğlu" şirkəti tərəfindən Xanlıqlar kəndində 2 yeni Əhəng zavodlarının tikintisi davam edir. Həmin zavodlarda 300-ə yaxın yeni iş yerinin açılması nəzərdə tutulmuşdur.

Rayonun Birinci Şıxlı kəndində 220 başlıq heyvandarlıq və Orta Salahlı kəndində aylıq gücü 30 min baş olan quşçuluq fermalarının tikintisi işləri davam etdirilir.

Qaymaqlı kəndində fəaliyyət göstərən fermada lizinq yolu ilə gətirilmiş 75 baş düyədən 76 buzov alınmış, hazırda təsərrüfatda əlavə tikinti işləri davam edir, daha 100 baş cins düyələrin gətirilməsi istiqamətində danışıqlar aparılır.

2016-cı ilin birinci rübü ərzində rayonda ağac əkini davam etdirilmiş, əkilmiş 138500 ədəd ağacın 30000 ədədi Bakı-Qırmızı Körpü magistral avtomobil yolunun Qazax rayonu ərazisindən keçən hissəsində əkilmişdir. Əkilmiş ağaclara aqrotexniki qulluq işləri göstərilir. 20000 ədəd müxtəlif növ ağaclar və 40000 ədəd gül kolları park və xiyabanlarda əkilmişdir.

2016-cı ilin birinci rübü ərzində Qazax rayonunda kənd təsərrüfatı məhsullarının artırılması məqsədilə də bir sıra səmərəli işlər görülmüş və müsbət nəticələr əldə olunmuşdur.

Kənd təsərrüfatı bitkilərinin normal suvarma suyu ilə təmin etmək məqsədilə Qazax Suvarma Sistemləri İdarəsi və Melioserviz İdarəsi tərəfindən birinci rübdə plana uyğun olaraq arxlarda 175 min m3 lildən təmizləmə işləri aparılmışdır.

2016-cı ilin məhsulu üçün 7761 hektar sahəyə taxıl səpilmişdir ki, bu da ötən ildən 2202 hektar çoxdur. Bu ilin məhsulu üçün indiyə kimi erkən yazlıqlardan cəmi 411hektar, o cümlədən 88 hektar yonca, 162 hektar kartof, 139 hektar yazlıq dənlilər və 22 hektar tərəvəz əkilmişdir. Hazırda əkin işləri davam etdirilir.

İstehsalçılara texnika cəhətdən kömək göstərilməsi məqsədilə Aqroservisdə və şəxsi vətəndaşlarda olan 45 ədəd şum traktoru, 346 ədəd təkərli traktorlar, 10 ədəd toxum təmizləyən, 25 ədəd taxıl və qarğıdalı səpən, 17 ədəd mala, 12 ədəd gübrəsəpən və 50 ədəd digər kənd təsərrüfatı texnikalarından istifadə olunur.

Hesabat dövründə bitkiçilik sahəsində olduğu kimi, heyvandarlıq sahəsində də uğurlar əldə olunmuşdur. Süni yolla mayalandırılmış heyvanlardan 76 baş bala alınmışdır. Heyvandarlıq sahəsində zoobaytar tədbirlərinin planlı surətdə həyata keçirilməsinin nəticəsidir ki, məhsul istehsalı dinamik surətdə artmaqdadır. Belə ki, keçən üç ay ərzində ötən ilin eyni dövrünə nisbətən 146 ton artıq süd istehsal olunaraq 75990 tona, 34 ton artıq ət istehsal olunaraq 1387 tona və 152 min ədəd çox yumurta alınaraq 2690000 ədədə çatdırılmışdır.

Qazax rayon Baytarlıq idarəsi tərəfindən 2016-cı ilin birinci rübündə epizootik, müalicə-profilaktik tədbirlər planına uyğun olaraq 30111 baş iribuynuzlu və 1757 baş təkdırnaqlılar qarayara, 29827 baş iribuynuzlu heyvanlar dabax, 5806 baş sahibli ev itləri quduzluq xəstəliyinə qarşı peyvənd edilmişdir. Həmçinin 154540 baş körpə ev quşları taun xəstəliyinə qarşı La-Sota ilə peyvənd olunmuşlar.

2016-cı ilin 3 ayı ərzində rayon İcra Hakimiyyətinə 219 müraciət daxil olmuşdur. Müraciətlərdən 75-i Prezident Administrasiyasına, 6-sı Milli Məclisə, 4-ü Nazirlər Kabinetinə, 9-u respublikanın digər təşkilatlarına, 125-i isə bilavasitə İcra Hakimiyyətinə ünvanlanan müraciətlərdir. Rayon İcra Hakimiyyəti Başçısının aparatına daxil olan müraciətlərin təhlili göstərir ki, müraciətlərin 35,6 faizi mərkəzi orqanlardan, 64,4 faizi isə vətəndaşlar tərəfindən daxil olmuşdur. Daxil olan müraciətlərin 17,3 faizi müsbət həll olunmuş, 8,7 faizi qismən həll olunmuş, 0,5 faizi əsassız sayılmış, 73,5 faizinə müvafiq izahat verilmişdir.

2016-cı ilin 3 ayı ərzində Qazax RİH Başçısı tərəfindən 12 səyyar görüş-qəbullar keçirilmişdir. Həmin görüşlərdə iştirak edənlərin sayı 7844 nəfər, müraciət edənlərin sayı 136 nəfər olmaqla 93 təklif irəli sürülmüşdür. Qaldırılan problemlər və təkliflərdən 44-ü icra edilmiş,1 məsələ üzrə işlər davam edir, 48 təklif ilə əlaqədar isə aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmışdır.

İclasda rayon Suvarma Sistemləri İdarəsinin rəisi Abbas Göyüşov, Su-Kanal İdarəsinin rəisi Alı Hüseynov, Əhalinin Sosial Müdafiəsi Mərkəzinin rəisi Yasin Mürsəlov, Məşğulluq Mərkəzinin direktoru Elçin Nəsibov və başqaları çıxış etmişlər.

Sonda əldə olunmuş naliyyətlərlə yanaşı, həm də öz həllini gözləyən problemlər, çatışmamazlıqlar və onların həlli yolları, rayonda aparılacaq tikinti-quruculuq və abadlıq işləri, vətəndaşların müraciətləri ilə bağlı görülən işlər də müzakirə olunmuş, idarə müəssisə və təşkilat rəhbərlərinə lazımi tapşırıqlar verilmişdir.

## 31 Mart - Azərbaycanlıların Soyqırımı günü rayonumuzda qeyd olunmuşdur



**31 Mart-Azərbaycanlıların Soyqırımı günü ölkəmizin hər yerində olduğu kimi rayonumuzda da qeyd olunmuşdur. Rayonda yerləşən idarə və təşkilatlarda, təhsil, səhiyyə və mədəniyyət müəssisələrində soyqımla bağlı anım mərasimləri, sərgilər, dəyirmi masalar, ümumtəhsil məktəblərində dərslər keçirilmişdir.**

Bu qəbildən rayon İcra Hakimiyyətində təşkil olunan tədbir soyqırım qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanmışdır.

Tədbiri açıq elan edən rayon İcra Hakimiyyəti Başçsının birinci müavini Fərman Nağdalıyev qeyd etmişdir ki, Azərbaycan xalqına qarşı erməni vəhşiliyinin tarixi 200 ildən də əvvələ gedib çıxır. Bu müddət ərzində ermənilər xalqımıza qarşı dəfələrlə soyqırımları törətmiş, şəhərlərimizi, kəndlərimizi xarabalığa çevirmişlər. Yüzlərlə, minlərlə azarbaycanlıları qanına qəltan edən, uşaqlara, yaşlılara, xəstələrə belə rəhm etmədən ağlasığmaz işgəncələr verən erməni qaniçənləri vəhşicəsinə öldürdükləri insanların meyitlərini təhqir etməkdən, azyaşlı uşaqları və körpələri diri-diri tonqala atmaqdan belə çəkinməmişlər. Azərbaycanlılara qarşı bu soyqırım faktı tarixi mənbələrdə və yaddaşlarda olmasına baxmayaraq Sovetlər dönəmində bu faktların geniş şəkildə ictimaiyyətə çatdırılmasına yasaq qoyulduğu, yalnız ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra soyqırım hadisəsinə hüquqi qiymət verildiyi bildirilmişdir.

Tədbirdə rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova məruzə ilə çıxış etmiş, məruzə ətrafında rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Nəbiyev, Təhsil şöbəsinin müdir müavini Zakir Nəsibov, məcburi köçkün Allahverən Poladov və başqaları çıxış etmişlər. Məruzə və çıxışlarda bildirilmişdir ki, ermənilər tərəfindən azərbaycanlıların soyqırımından 98 il ötür. Erməni millətçilərinin və onların havadarlarının son iki əsrdə azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirdikləri soyqırımı siyasəti nəticəsində xalqımız ağır məşəqqətlərlə üzləşmiş, onların hüquq və azadlıqları vəhşicəsinə kütləvi sürətdə pozulmuşdur. Bu mənfur siyasətin məqsədi azərbaycalıları öz tarixi torpaqlarından qovmaq, bu ərazilərdə erməni ideoloqların uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaq olmuşdur. XIX əsrin əvvəllərindən başlayaraq tarixi Azərbaycan torpaqları olan Qarabağa, Zəngəzura, İrəvan quberniyasına, Naxçıvana və digər bölgələrə İran və Türkiyədən minlərlə erməni ailəsi köçürülmüşdür.

Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasəti 1918-1920-ci illərdə daha geniş yayılmışdır. Onlar Bakıda, Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və digər ərazilərdə azərbaycanlıları amansızlıqla, vəhşicəsinə qətlə yetirmişlər. Bu qanlı hadisələrin daha dəhşətlisi 1918-ci ilin martın 31-də törədilmişdir. Həmin il martın 30-da erməni-bolşevik birləşmələrinin Bakını Xəzər dənizindən yaylım atəşinə tutması ilə başlanan hadisələrin ardınca martın 31-də və aprelin 1-2-də qəddarlıqla həyata keçirilən qırğınlar kütləvi şəkil almış, silahlanmış erməni əsgərləri dinc əhalini vəhşicəsinə məhv etmişlər. Qırğınların davam etdiyi dövrdə Azərbaycan ərazisində 10 mindən çox, o cümlədən, Bakıda və ətraf kəndlərdə 30 minə yaxın azərbaycanlı amansızlıqla qətlə yetirilmiş, yaşayış binaları, məscidlər və məktəblər yandırılmışdır. Lakin təəssüflər olsun ki, bu Soyqırımına uzun müddət ölkəmizdə və dünyada hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların Soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında bu hadisələrə hüquqi-siyasi qiymət verilmiş və azərbaycanlıların ermənilər tərəfindən soyqırımına məruz qaldıqları ilk dəfə rəsmi olaraq bildirilmişdir.

Çıxış edənlər Ermənistanın 1988-ci ildə başladığı növbəti təcavüz nəticəsində Azərbaycanın Dağlıq Qarabaq bölgəsi, eləcə də ona bitişik yeddi rayonu işğal etdiyini, beləliklə, ölkəmizin 20 faiz ərazisinin zəbt olunduğunu, yüz minlərlə soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, eləcə də Qazax rayonunun 7 kəndinin erməni işğalçıları tərəfindən dağıdıldığını, Xocalı soyqırımında olduğu kimi Qazax rayonunun Bağanıs Ayrım kəndində Dadaş Əsliyevin 4 nəfərdən ibarət ailə üzvünün və 3 nəfər kənd sakininin ermənilər tərəfindən diri-diri yandırıldığını bildirmişlər.

Tədbirdə Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə böhtanlar atan, siyasi və hərbi təcavüz həyata keçirən ermənilərin bu vəhşiliklərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında ölkə başçısının gördüyü işlərdən danışılmış və daha sonra bildirilmişdir ki, Prezident İlham Əliyevin yeritdiyi düzgün və məqsədyönlü siyasət nəticəsində Azərbaycanın ərazi bütövlüyü tam bərpa ediləcək, qaçqın və məcburi köçkün ailələri öz doğma yurdlarına qayıdacaqlar və Azərbaycanlıların Soyqırımına bütün dünyada hüquqi-siyasi qiymət veriləcəkdir.

## 2016-cı il üçün Qazax rayon İcra Hakimiyyəti Başçısının aparatında vətəndaşların qəbulu cədvəli

| S/№-si | Qəbul edən şəxs | Tutduğu vəzifə | Qəbul günləri | Qəbul vaxtı |
|---|---|---|---|---|
| 1. | Əsgərov Ayaz Nəriman oğlu | Rayon İcra Hakimiyyətinin Başçısı | Hər həftənin V günü | $10^{00}$-dan |
| 2. | Nağdalıyev Fərman Məmməd oğlu | Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini | Hər həftənin I günü | $10^{00}$-dan |
| 3. | Musayev Tahir Xaliddin oğlu | Rayon İcra Hakimiyyəti Başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Hər həftənin II günü | $10^{00}$-dan |
| 4. | Həsənova Gulaya Ziyad qızı | Rayon İcra Hakimiyyəti Başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Hər həftənin III günü | $10^{00}$-dan |
| 5. | Abışov Gündüz Fəxrəddin oğlu<br>Alıyev Məmməd Oruc oğlu<br>Həsənov Mehdi Alı oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri<br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri<br>Memarlıq və tikinti şöbəsinin müdiri | Hər həftənin IV günü | $10^{00}$-dan |

***Qeyd:***

**1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.**

**2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.**

**3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :**

**022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022)295-56-70**

# Azərbaycan Respublikası Prezidentinin yanında keçirilmiş Təhlükəsizlik Şurasının iclası ilə əlaqədar Qazax rayon ictimaiyyəti nümayəndələrinin toplantısı keçirilmişdir





**Ermənistan silahlı qüvvələrinin bölmələrinin təxribatları nəticəsində son günlər qoşunların təmas xəttində yaranan gərginlik, bu təxribatların qarşısının alınması məqsədi ilə Silahlı Qüvvələrimizin komandanlığı tərəfindən həyata keçirilən cavab tədbirləri, Azərbaycan Respublikası Prezidentinin yanında keçirilmiş Təhlükəsizlik Şurasının iclasında Prezident İlham Əliyevin çıxışı ilə əlaqədar Qazax rayon ictimaiyyəti nümayəndələrinin toplantısı keçirilmişdir.**

Gənclər Mərkəzində keçirilən toplantıda rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov, Milli Məclisin deputatı Kamran Nəbizadə, rayon İcra Hakimiyyətinin məsul işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, hərbi hissələrin komandirləri, idarə, müəssisə və təşkilat rəhbərləri, inzibati ərazi dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri, Qarabağ müharibəsi veteranları və əlilləri, şəhid ailələrinin üzvləri, gənclər, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişdir.

Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoymuş, əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

Keçirilən tədbirdə ilk öncə Azərbaycan Ordusunun gücünü əks etdirən video-çarx nümayiş etdirilmişdir. Daha sonra erməni işğalçıları ilə döyüşlərdə qəhrəmancasına həlak olan Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov çıxış edərək bildirmişdir ki, son günlərdə işğal olunmuş ərazilərdə erməni silahlı birləşmələrinin təxribat əməllərinə Azərbaycan Ordusunun layiqincə cavab verməsini, düşmənin canlı qüvvəsi və hərbi texnikasının darmadağın etməsini və Təhlükəsizlik Şurasının iclasında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin aprelin 2-nin Azərbaycan Ordusunun tarixində parlaq zəfər günü kimi qalacağını bəyan etməsini hər bir Qazaxlı böyük sevinclə qarşılayır.

Son günlər cəbhə xəttində gərginliyin artmasının ermənilərin növbəti təxribatı olduğu bildirilib. Vurğulanıb ki, aprelin 2-nə keçən gecə təmas xəttində bu təxribatlara layiqincə cavab verən Azərbaycan Silahlı Qüvvələri bütün istiqamətlərdən əks hücuma keçərək, düşmənin mövqelərinə sarsıdıcı zərbələr endirib. Azərbaycan Ordusunun uğurlu əməliyyatı nəticəsində bir neçə yaşayış məntəqəsi, yüksəkliklər ələ keçirilib, düşmən həm canlı qüvvə, həm də texnika sarıdan çox böyük itkilər verib.

Hazırda bütün təmas xətti boyunca ermənilərin təxribatı davam edir. Lakin ordumuzun şəxsi heyətinin döyüş qabiliyyəti, hərbi təcrübəsi və döyüş ruhu çox yüksəkdir. Atəşkəs rejimi haqqında razılaşmanın Ermənistan tərəfindən pozulması təkrarən baş verərsə, düşmənə vurulacaq zərbələr daha ağır və sarsıdıcı olacaqdır. Bu gün Azərbaycan Silahlı Qüvvələri cəbhə boyu zonada əməliyyat şəraitinə tam nəzarət edir.

Bütün bunlar onu göstərir ki, Ermənistan Silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması təmin olunacaqdır.

İcra Başçısı çıxışı zamanı cəbhə bölgəsində Azərbaycan əsgərlərinin qəhrəmanlığını, xalqın böyük sevincini Prezidentin həyata keçirdiyi siyasətin təntənəsi olduğunu, Xalq-Dövlət birliyinin gücü-qüdrəti ilə ərsəyə gəldiyini və yaxın vaxtlarda torpaqlarımızın azad olunacağını, qaçqın və məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdacağını qeyd etmişdir. Cəbhə bölgəsindəki mövcud durum barədə danışan Ayaz Əsgərov icra strukturları və hüquq-mühafizə orqanlarına daha ayıq-sayıq olmağı tövsiyə edib, ordumuzun əldə etdiyi uğurlar barədə əhalinin daha geniş məlumatlandırılmasının, müəssisə və təşkilatlarda, məktəblərdə hərbi vətənpərvərlik işinin yüksəldilməsinin vacibliyini vurğulayıb.





Toplantıda Milli Məclisin deputatı Kamran Nəbizadə, hərbi hissə komandiri, polkovnik İdris Məhərrəmov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Qazax filialının sədri Xasay Ballayev, Ehtiyatda olan zabitlər Konfederasiyasının Qazax rayon şöbəsinin sədri Baxış Hüseynov, şəhid ailəsi Kifayət Mustafayeva, ADPU Qazax filialının tələbəsi Nicat Məmmədov, məktəbli Ülkər Hadızadə və başqalarının çıxışlarında son günlər ermənilərin təmas xəttində törətdikləri təxribatlar qətiyyətlə pislənilib, işğal altındakı torpaqlarımızın mənfur düşməndən tezliklə azad olunacağına əminlik ifadə edilib, bu qələbədən sonsuz sevinc duyduqları, hər an Prezidentin əmri ilə Vətən yolunda canlarından keçməyə hazır olduqlarını, bu şərəfli yolda heç nələrini əsirgəməyəcəklərini bildirmiş və bütün dünya azərbaycanlılarının Prezidentin ətrafında sıx birləşməyə, dünya ictimaiyyətini isə Azərbaycan xalqına qarşı törədilən ədalətsizliklərə qarşı səslərini ucaltmağa çağırıblar.

Sonda rayon ictimaiyyəti nümayəndələrinin adından Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə müraciət qəbul olunmuşdur.

# "Narkomaniya bəşəriyyətin bəlası"

**Qazax rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax filialında "Gənclər və yeniyetmələr arasında narkomaniyaya qarşı mübarizə" mövzusunda toplantı keçirilmişdir. Tədbirdə polis şöbəsinin rəhbərliyi və əməkdaşları, tələbələr və KİV nümayəndələri iştirak etmişdir.**



ADPU Qazax filialının direktoru, dosent Afaq Qasımova toplantını giriş sözü ilə açaraq qeyd etmişdir ki, son illər rayonun hüquq-mühafizə orqanları tərəfindən narkomaniyaya qarşı aparılmış ardıcıl mübarizə və həyata keçirilmiş tədbirlər nəticəsində bu cür halların sayı xeyli azalmış, narkomaniyaya qarşı mübarizə sahəsində görülmüş işlər, həyata keçirilmiş tədbirlər öz bəhrəsini vermişdir. Son illərin göstəriciləri bunu deməyə əsas verir ki, gənclər arasında aparılan hüquqi maarifləndirmə işləri böyüməkdə olan nəsildə narkomaniyaya qarşı böyük ikrah hissi oyatmışdır.

Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Natiq Həsənov geniş məruzə ilə çıxış edərək narkomaniyanın profilaktikası, ona qarşı mübarizənin yolları haqqında maraqlı fikirlər söyləmiş və öz mülahizələrini bildirmişdir. Qeyd etmişdir ki, əsrimizin bəlası olan narkomaniyaya qarşı ölkəmizdə, eləcə də Qazax rayonunda ciddi və barışmaz mübarizə aparılır. Bu məqsədlə həm hüquqi tədbirlər görülür, həm də əhali arasında, xüsusilə yeniyetmələr arasında təbliğat və maarifləndirici işlər həyata keçirilir. N.Həsənov bildirmişdir ki, təkcə bu ilin 2 ayı ərzində narkomanlara qarşı ciddi tədbirlər görülmüşdür. Belə ki, qısa müddət ərzində bu bəlaya düçar olmuş insanlar haqqında hüquqi tədbirlər görülmüşdür. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, az bir zaman kəsiyində narkomaniyaya qarşı mübarizə sahəsində təqdirəlayiq nəticələr əldə edilmişdir.

"Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl və başqaları çıxış edərək narkomaniyaya qarşı aparılan mübarizə işlərindən, bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlərdən danışmışlar.

Sonda narkomaniyanın törətdiyi fəsadları özündə əks etdirən film nümayiş olunmuş, eyni zamanda iştirakçıları maraqlandıran suallar dolğun şəkildə cavablandırılmışdır. Həmçinin tədbirdə iştirak edənlərə məlumat xarakterli bukletlər paylanılmışdır.

# "Radikalizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərin qorunması"



**Rayonumuzda dini maarifləndirmə və mili-mənəvi dəyərlərin təbliği işinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin "Radikalizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərin qorunması" layihəsi çərçivəsində rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə maarifləndirmə tədbiri keçirilmişdir.**

Rayonun Daş Salahlı kənd 2 saylı tam orta məktəbində keçirilən tədbiri Qazax rayon İcra Hakimiyyəti başçısı aparatında İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Məhəmməd Orucov açmış və dövlət başçısı İlham Əliyevin dini icmalara, dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı maliyyə yardımının ayrılması barədə Sərəncamını dövlətin dinə qayğısı kimi qiymətləndirmişdir. Bildirmişdir ki, Prezidentin bu qərarı dini icmaların fəaliyyətində aktivlik yaradacaq, layihələr çərçivəsində keçirilən tədbirlərdə cəmiyyəti narahat edən mənfi halların aradan qaldırılması üçün səy göstərəcək, İslam dini və milli-mənəvi dəyərlərimizin, adət-ənələrimizin qorunması istiqamətində atılan bu təqdirəlayiq addım öz bəhrəsini verəcəkdir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Qərb bölgəsi üzrə şöbə müdiri Eldəniz Vəliyev, rayon Prokurorunun müavini Rafael Həsənov, DTX-nin rayon şöbəsinin baş əməliyyat müvəkkili Müşviq Mürsəlov, QMİ-nin Qərb bölgəsi üzrə qazisi İlham Süleymanov, Daş Salahlı kənd "İslam" Məscidi Dini İcmasının sədri İslam Əliyev və Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Qərb bölgəsi üzrə şöbəsinin aparıcı məsləhətçisi Vüqar Əliyev və başqa natiqlər radikalizmin fəsadlarından, onun cəmiyyətə vura biləcəyi zərbələrin acı nəticələrindən danışmışlar. Qeyd edilib ki, qloballaşan dünyamızda son zamanlar baş verən əksər münaqişələrin əsas səbəbi radikalizm, ekstremizm, məzhəb təəssübkeşliyi və ayrı-seçkiliyidir. Bildirilib ki, bu cür hadisələrin yaranmaması üçün xalqı maarifləndirmək, insanlar arasında tolerantlıq mədəniyyətini, birgə yaşayış ənənəsini daha da inkişaf etdirməyə böyük ehtiyac var. Tədbirdə vurğulanıb ki, gənc nəslin dini və milli əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorumaq məsuliyyəti bütün cəmiyyətin üzərinə düşür. Gənclərin ekstremist təmayüllü dini cərəyanlara qoşulmaması üçün mili-mənəvi dəyərlərə söykənən həqiqi dini dəyərlərlə, dövlətinə bağlı, sədaqətli, vətənpərvər tərbiyə olunması önəmlidir.

Tədbirdə çıxış edənlər ölkəmizdə tolerantlığın inkişafı, multikultural həyat tərzi, dinlər və məzhəblərarası münasibətlərin yüksək dostluq şəraitində inkişafına göstərilən diqqət və qayğıdan da danışmışlar.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax filialında ordumuza dəstək olmaq üçün tədbir keçirilmişdir

**Aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribatı nəticəsində həlak olmuş hərbiçilərimizin və mülki şəxslərin ruhunu yad etmək və ordumuza dəstək məqsədi ilə Azərbaycan Dövlət Pedaqoji Universiteti Qazax filialının tələbə-müəllim heyəti və pedaqoji kollektivinin iştirakı ilə tədbir keçirilmişdir. Tədbir ilk öncə dahi bəstəkarımız Üzeyir Hacıbəyovun azadlıq himnini doğuran "Koroğlu" uverturasının səslənməsi ilə başlamışdır.**

Sonra torpaqlarımızın azadlığı uğrunda canlarından keçərək şəhidlik zirvəsinə yüksələn şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

ADPU Qazax filialının direktoru, dossent Afaq Qasımova tədbirdə çıxış edərək bildirmişdir ki, Ermənistan hərbi qüvvələri artıq bir neçə gündür ki, Azərbaycan kəndlərini, yaşayış məntəqələrini böyük miqyaslı silahlar - top və pulemyotlardan atəşə tutur, hərbi mövqelərimizə ardıcıl zərbələr endirir. Azərbaycan Ordusu vətəndaşların təhlükəsizliyini və öz mövqelərini qorumaq üçün Ermənistan silahlı qüvvələrinə lazımi cavabı verib. Azərbaycan münaqişənin həlli ilə bağlı məsələnin reallaşdırılması üçün üzərinə düşənləri yerinə yetirsə də, növbəti təxribat törədilib və qarşısı qətiyyətlə alınıb. Prezident İlham Əliyevin dediyi kimi, "bizə qarşı yenə təxribat törədilərsə onlar yenə də öz cəzalarını alacaqlar. Biz Ermənistan torpağını işğal etməmişik. Biz öz torpağımızda vuruşuruq. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm". A.Qasımova belə dəstək xarakterli tədbirlərin böyük əhəmiyyət kəsb etməsindən, ordumuzun, əsgərlərimizin gücündən söz açmışdır. Dövlətimizin, xalqımızın onlara böyük etimad göstərməsini vurğulamışdır.

ADPU Qazax filialının direktor müavini, dossent Məmməd Yusifov, riyaziyyat-informatika kafedrasının müəllimi Hüseyn Xəlilov, azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri İradə Arıxova, kafedranın baş müəllimi Heyran Vəkilova, pedaqoji fənlər kafedrasının müəllimi Hamlet İlyasov çıxış edərək şəhidliyin ən uca zirvə olduğunu, torpaqlarımız uğrunda həlak olan şəhidlərimizin, onların əziz xatirəsinin hər zaman qəlbimizdə yaşayacağını bildirmişlər.

Sonra tələbələrdən riyaziyyat-informatika fakültəsinin III kurs tələbəsi Nicat Məmmədov, IV kurs tələbəsi Orxan Abışov, azərbaycan dili və ədəbiyyat fakültəsinin II kurs tələbəsi Yaqub Vəliyev çıxış edərək Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdiklərini, vətənimizi yad tapdağından azad etməyə hər an hazır olduqlarını söyləmişlər. Əsgərlərimizin böyük bir məsuliyyət üzərinə götürdüyünü bildirən tələbələr Ali Baş Komandan əmr verərsə, hər birinin ön cəbhəyə gedib doğma torpaqlarımızı azad edənədək vuruşmaq əzmində olduqlarını ifadə etmişlər.

Daha sonra tələbələrdən bir qrupu vətənpərvərliyə, azadlığa, şəhidlərimizə həsr olunmuş şeirlər söyləmişlər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və "Qarabağ bizimdir, bizim olacaq" şüarları ilə başa çatmışdır.

**Nüşabə HÜSEYNOVA**

# MƏNİMLƏ FƏXR EDƏCƏKSƏN, ANA



**Vətən nə deməkdir? Vətən doğulub böyüdüyümüz, üzərində yaşadığımız, lazım gələndə uğrunda canımızı verəcəyimiz torpaq bütünüdür. Diqqət edək: "uğrunda canımızı verəcəyimiz". Yəni bir torpaq parçası üçün can fəda edilirsə, o torpaq Vətəndir. Şairin dediyi kimi:**

Torpaq - əgər uğrunda ölən varsa, Vətəndir. Bu uğurda canından keçmək isə vətən sevgisinə sahiblikdən doğur. Bəs Vətən sevgisi nədir? Üzərində həyat sürdüyümüz bu torpaq üçün lazım gələndə həyatını, sahib olduğu hər şeyi Vətən yolunda düşünmədən fəda edə bilmək duyğusunun təcəssümüdür Vətən sevgisi. Vətən sevgisi ən əsil, ən uca sevgidir. Məqamı gəlincə Vətən üçün döyüşmək də Vətən sevgisinin bir təzahürüdür.

Unutma-malıyıq ki, biz Vətən uğrunda qanlarıyla dastanlar yazanların, şəhidlər verən bir millətin övladlarıyıq.

Məhz bu xalqın xələfləri kimi bu adı qorumaq sələflərimizin əmanətinə sahiblik borcu olmalıdır.

Nəhayət, Vətən hər bir kəsin sevgilisi, məhbubu olmalıdır. Ondan üstün məhəbbət yaşaya bilməz qəlbimizdə. Görkəmli ədib Abbas Səhhət demişkən:

***Könlümün sevgili məhbubu mənim***
***Vətənimdir, vətənimdir, vətənim...***

Haqqında söhbət açacağım Vətən oğullarından biri də baş leytenant Namazov Elvin Məmməd oğludur. O, Qazax rayonunun Yuxarı Salahlı kəndində doğulub boya-başa çatıb. Onu indi bütün Azərbaycan tanıyır. O, etdikləri ilə, göstərdikləri şücaətlə bütün qəlblərdə məskən salıb. Cavan yaşında elə bir zirvəyə yüksəlib ki, onu nə biz, nə də zaman unudacaqdır.

Anası Aişə Namazovadan oğlu Elvin haqqında soruşanda onu qəhər boğdu, xeyli susdu. Sanki dili tutuldu bir anlıq. Lakin uzun sükutdan sonra danışdı:

Onun haqqında nə danışım mən? O, mənim ilk nübarım idi, hər şeyim idi. O, orta məktəbi bitirdikdən sonra Bakıya üz tutdu. Heydər Əliyev adına Hərbi Akademiyaya. Hərbiçi olmaq öz arzusu idi. Biz də onun bu istəyinə qarşı çıxmadıq. 5 il orada oxudu. Sonra Mingəçevir şəhərinə, N saylı hərbi hissəyə komandir göndərildi. Az müddətdə hamının hörnətini, sevgisini qazanmışdı. Adəti üzrə yenə bizdən xəbərsiz xüsusi təyinatlı kursa yazılıb. Onu bu yoldan heç kəs döndərə bilməyib. İstəyiblər ki, Mingəçevirdə qalıb işləsin. Lakin o, öz istəyinin arxasınca gedib. 6 ay kurs keçib. Bundan qohumlarının, əzizlərinin xəbəri olmayıb.

Tez-tez evimizə təşəkkür məktubları gəlirdi. Oxuyub sevinirdik. Özündən soruşanda isə bircə kəlmə ilə deyirdi ki, "Hələ bu nədir ki, vaxt gələcək mənimlə fəxr edəcəksən, ana"

Mənim qızım yoxdur. Bir gün dedim ki, gəl səni öz kəndimizdən evləndirim. Mənə də qız olar, qocalanda qayğıma qalar. Bildirdi ki, ana mənim sevdiyim var. Sənin kimi bir qaragöz gözəldi. Ağdamlıdır. Mən həmişə olduğu kimi yenə onun istəyinin əleyhinə çıxmadım. Qazaxdan uzaq səfərə çıxdım, onu sevdiyinə qovuşdurdum. Ötən ilin bu vaxtı toya hazırlaşırdıq. Düz 10 ay əvvəl

Mart ayı idi. Novruz bayramına az qalmışdı. Mənə zəng edib dedi ki, bu bayramda sən bizim yanımıza gəl. Pay göndərmə, özün gəl. Bax göndərsən geri qaytaracam. Dediyini eləyən idi. Ona görə də hazırlaşıb ona qonaq getdim. Qayıdanda mənimlə elə görüşdü ki, sanki vidalaşır. Dönə-dönə üz-gözümdən öpdü. Kəndə gələndə evdəkilərə dedim ki, vallah ürəyimə nəsə damıb. Elvin əvvəlki Elvin deyil. Mənimlə elə görüşdü ki, elə bil bir daha görüşməyəcəyik. Bu, belə də oldu. Ana qəlbi həssas olur axı. Gecə evimizə zəng gəldi. Və bu zəng mənim işıqlı dünyamı qaranlığa qərq etdi.



Bu gün Elvinimdən mənə qalan ən dəyərli yadigar üçrəngli Azərbaycan bayrağıdır. Onu başımın üstündə saxlayacam. Öləndə isə vəsiyyət edəcəm ki, başımın altına qoysunlar. Deyirəm kaş ki, Elvinimdən bir yadigar övlad qalardı. Ömrümü ona bağlayıb yaşayardım. İndi necə yaşayacağımı bilmirəm. Lakin Elvinin sözləri hər zaman qulağımdadır. Bu, da mənə bir təsəllidir. "Mənimlə fəxr edəcəksən, Ana". Bəli, bu gün mən oğlumla fəxr edirəm. O, təkcə mənim deyil, bütün Azərbaycanın fəxridir.

Həyat yoldaşı, 10 aylıq ömrünün yoldaşı, taleyi yarım qalan, bəxti küskün Nuranə Namazova da Elvindən söz açdı. Onun söylədikləri çox ağır olsa da, bu da bir şəhidin ömür tarixidir.

- Biz Elvinlə təlim-tərbiyə mərkəzində tanış olmuşduq. Mən tibb kursunda oxuyurdum. Elvin məni orda görüb bəyənmişdi. Sonra zaman keçdi və biz birbirimizi sevdik, evləndik. Uzaq bir yerə gəlin köçsəm də məsafə məni qorxutmamışdı. Lakin bu gün Elvini məndən daha uzun məsafələr aldı. Onun yoxluğuna alışmaq çox çətindir.

Bizə hərbi şəhərcikdə təzə ev vermişdilər. Öz zövqümüzlə evi bəzəmişdik, ana olmağa hazırlaşırdım. Gözəl arzular, xəyallar qururduq. Düşünürdüm ki, Elvin evdə olmayanda daha tək qalmayacam. Daha iki nəfər onun yolunu gözləyəcək. Lakin bu xoşbəxtlik də mənə qismət olmadı. Biz övladımızı itirdik. O, buna görə çox pis olmuşdu. Bu hadisədən 10 gün keçmişdi ki, mən Elvinimi də itirdim. İndi ondan mənə qalan tək xatirə istifadə etdiyi ətirdir. Bir də fotoşəkillər

30 mart 2016-cı il tarixini heç vaxt unutmayacam. Biz hamımız, yəni hərbiçi həyat yoldaşları onları yola salmaq üçün eyvana çıxmışdıq. Bütün döyüş yoldaşları dönüb arxaya əl edəndə Elvin isə arxaya baxmadan bircə dəfə əl etdi. Bu da mənə bir dərd oldu. Düşündüm ki, niyə belə görüşdü. Buna görə xeyli ağladım da

Gedən vaxtdan əlaqə saxlayırdıq. Tez-tez yazırdı mənə. Axrıncı dəfə mənə zəng edəndə ağladım. Mənə söylədi ki, niyə ağlayırsan hər şey yaxşıdır. Ağlama, bir də ağlım səndə qalmasın. İndi mən necə yaxşı olum? Axı, hər şey onun dediyi kimi yaxşı olmadı...

**Nüşabə HÜSEYNOVA**

# ŞƏHİDLİK ZİRVƏSİNƏ UCALDI

**Fərəhli kəndinə üz tutdum. Kapitan Orucov Mühüd Qurban oğlunun ata yurduna. Fərəhli Qazaxın sərhəd kəndidir. Dağlar qoynunda yerləşən bu kəndin sinəsi daim düşmənə sipər olmuşdur. Nankor ermənilər müxtəlif illərdə dəfələrlə kəndi atəşə tutmuş, əhalisinə mənəvi və maddi ziyan vurmuşdur. Lakin fərəhlilər bir gün də olsa, öz yurd-yuvalarını tərk etməmiş, düşmən qarşısında mərd dayanmışlar.**



Elə bu, səbəbdən də yerdən qalxan nəsil mərd, qorxmaz, cəsarətli, o cümlədən də düşmənə nifrət hissi ilə böyümüşlər. Mühüd Orucov da belə nəslin içində böyüyüb boya-başa çatmışdı. Kimin ağlına gələrdi ki, Vətənə olan sevgisi illər sonra onu qəhrəmana çevirəcəkdir. Haqqında dastanlar yazılacaq bir qəhrəmana. Əslində mən də Mühüd Orucovu doğmalarının, dostlarının onun haqqında söylədikləri və mənim bilmədiyim xatirələri öyrənmək üçün yola çıxmışdım.

Mən Fərəhlinin təbiət mənzərəsini seyr edərək yol getdim. Torpaq yamyaşıl örpəyə bürünmüşdü. Lakin bu gözəllik özünü əks etdirmirdi. Ara-sıra bu yaşıllıq arasında görünən sarı, qırmızı çiçəklər də boynunu bükmüşdü. Göyəzən dağının da başı dumanlı idi. Qürurlu dayansa da, sanki nəmli gözlərini gizlədirdi. Təbiət də elə bil öz şəhidinə yas tuturdu.

Mənə Mühüdün ata ocağını tapmaq elə də çətin olmadı. Üçrəngli Azərbaycan bayrağı dalğalanan evi asanlıqla tapdım. Çox keçmədi ki, başıma onun doğmaları, yaxınları toplaşdı. Sanki yolumu gözləyirdilər. Hamı onun haqqında olan xoş xatirələrini danışmaq istəyirdi. Birinci anası Sima xanım söz açdı:

- Mühüd ailəmizin ikinci uşağıdır. Lap körpəlikdən hərbi paltarda əsgər görəndə deyirdi ki, ana mən hərbiçi olacam. Səkkizinci sinifdən sonra bu istəklə də C.Naxçıvanski adına Məktəb Liseyə daxil oldu. Sonra təhsilini davam etdirərək ali hərbi məktəbə üz tutdu. Elə burada əsl hərbiçi kimi yetişdi. Orada serjant rütbəsini də aldı. Sonra onu Cəlilabada göndərdilər. Buradan o, öz xahişi ilə Türkiyədəki Komondos Hərbi Təlim Məktəbinə getdi. Həmin məktəbi yüksək səviyyədə bitirdi. Orada keçirilən çətin təlimlərdə fəallıq göstərmişdi. Təlimdən sonra Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan hərbiçilərlə görüşmüşdü. Mühüdə xüsusi diqqət yetirərək qucaqlayıb bağrına basmış, "Aslan gibisin" demişdi. Onu da qeyd edim ki, Mühüd Komondos məktəbində təhsil alan ilk qazaxlıdır. O, bir çox kurslarda olub, həmin kursları müvəffəqiyyətlə başa vuraraq Fəxri Fərmanlar, Diplomlar, mükafatlar alıb. Onun qiymətli mükafatı isə Ağdamda gedən əməliyyatlar zamanı göstərdiyi şücaətə görə aldığı qızıl qol saatıdır. Bu hədiyyəni Prezident İlham Əliyev şəxsən özü təqdim etmişdi Mühüdə. Ona görə də bu, onun üçün çox qiymətli idi.

- Atası Qurban Orucov isə oğlu haqqında çox az danışdı: Ona atamın adını qoymuşdum - Mühüd. Bilməzdim ki, o, atamın adını belə yüksəklərə qaldırıb şəhidlik zirvəsinə ucalacaq - deyərək kövrəldi və uzaqlaşdı.

- Həyat yoldaşı Qumru Orucova isə belə danışdı:

Mən Mühüdün yoxluğuna hələ də inanmıram. O, çox qorxmaz və cəsur idi. Evdə işi haqqında heç nə danışmazdı. Yalnız kəşfiyyatdan qayıtdıqda dostları ilə söhbətlərində ara-sıra nəsə eşidirdim. Döyüşlərdə hər zaman öndə gedib, hamıdan axırda gələrmiş. Ağdamda olan əməliyyat zamanı da onun sağ qalmasına hamı təəccüb edirdi. Deyirdilər ki, sən o odun, alovun içərisindən necə sağ çıxmısan. O, düşmənin bir çox texnikasını məhv etmiş, canını almışdı. O, həmişə döyüş yoldaşlarına kömək etmiş, yaralıları, həlak olanları canı bahasına xilas etmişdi. Ona görə də həmişə ilk bu atılardı döyüşlərdə düşmən önünə. Son döyüşdə də yaralı əsgərlər vəziyyətin gərgin olduğunu görüb ondan xahiş ediblər ki, komandir getmə, qayıtma geri. O, isə cavabında "Sizin qisasınızı almağa gedirəm", - deyib. Elə bu onun son gedişi olub. Bir daha geri qayıtmayıb.



Evdə az-az olurdu. Qonşuluqda qohumları yaşayırdı. Gələndə mütləq onlara baş çəkirdi. Mən istəyirdim ki, o, evdə uşaqlarının yanında daha çox qalsın. Ona deyirdim: Bizə də vaxt saxla. O, da cavabında: Darıxma sizə də vaxt qalacaq deyirdi. Sən demə qohumu evinə getməkdə o, bizi tapşırırmış. "Ailəmdən muğayat olun" deyirmiş.

Axrıncı dəfə işdən gələndə dedi ki, tapşırıq almışıq. Sabah əraziyə çıxmalıyıq. Mən bunu o qədər də ciddi qəbul etmədim, Düşündüm ki, həmişə olduğu kimi bir tapşırıqdır. Tezdən saat 05:00 olardı. O, həmişə işə bu saatlarda gedirdi. Həmin vaxt uşaqlar yatmış olurdu. Lakin bu gün nədənsə onlar da tez oyanmışdı. Dedim gəlin atanızla görüşün. Onlar Mühüdün boynuna sarıldılar. Uşaqları sinəsinə sıxdı, oxşadı, əzizlədi. Uşaqlar arxasınca "Ata, özünü qoru" dedilər. Bu, bizim onunla son görüşümüz oldu.

Bəli, bu gün Mühüdün evində iki əkiz oğul övladı böyüyür: Vüqar və Anar. Ataları canını Vətənə fəda verərək özünə əbədi ad qazandı.

**Xuraman ƏZİMOVA**

# VƏTƏN SƏNƏ OĞUL DEDİ...

**Hardan başlanır Vətən? Bu sualın cavabı sadə, çətin, həm də məsuliyyətlidir. Bütün halları nəzərə alaraq deyə bilərik ki, Vətən doğulduğumuz torpaqdan, onun əhatələndiyi sərhəddən başlayır. O sərhəddən ki, bir tərəfində dost var, bir tərəfində isə düşmən. Dostla qonşuluq etmək asandır. Düşmənlə qonşuluq etmək isə çətin və məsuliyyətlidir. O ki, qala erməni kimi bir düşmənlə. Bu qaniçənlərlə qonşuluq etmək üçün gərək hər an, hər dəqiqə ayıq-sayıq olasan, silahını bir an olsun belə əlindən yerə qoymayasan. Çünki qarşıdakı düşmən çox məkrli və hiyləgər, tökülən qanlardan doymayan bir canidir. Ona görə də Ana Vətəni qorumaq üçün lazım gələndə canından belə keçməlisən. Necə ki, indiyə qədər neçə-neçə igid oğullarımız öz canlarını bu yolda qurban veriblər. Neçə illərdir ki, sərhədlərimizi qoruyan igid oğullarımız məkrli düşmənlə üz-üzə, göz-gözə dayanıblar.**

Haqqında söhbət açdığım igid oğullar barəsində bu yazını yazarkən xəyalımdan məşhur bir Azərbaycan xalq məsəli də gəlib keçdi. Dünyada ən şirin şey bir Anadır, bir Vətən!

Son günlər Azərbaycan-Ermənistan sərhədlərində döyüşlərin baş verməsi nəticəsində bir neçə Azərbaycan gənci öz canından keçərək Vətən uğrunda şəhid oldular. Bu döyüşlər zamanı igid Azərbaycan ordusu bir neçə strateji əhəmiyyətli yüksəklikləri, həmçinin itirilmiş bir sıra torpaqlarımızı düşməndən geri aldı. Gedən döyüşlərdə ordumuz düşmənin layiqli cavabını verdi. Ermənilərin xeyli sayda canlı qüvvəsini, ağır texnikasını sıradan çıxartdı. Bununla belə ordumuz şəhidlər də verdi. Şəhidlər hər bir azərbaycanlı üçün Ananın və Vətənin müqəddəs olduğunu öz igidlikləri ilə bir daha sübut etdilər. Belə igidlərdən biri də Əliyev Orxan Məhəmməd oğludur.

Onun haqqında yazmaq üçün Orxanın böyüyüb boya-başa çatdığı Aslanbəyli kəndinə yola düşdüm. Bir neçə gün bundan əvvəl şəhidin dəfn mərasimində keçirdiyim kədərli duyğuların təsiri altında yolboyu Orxanın ailə üzvləri ilə necə söhbət edəcəyim barədə düşünüb-daşınırdım. Zaman və yol məni anbaan Orxanın doğulduğu evə yaxınlaşdırırdı.



Bu da Aslanbəyli kəndi. Kənd icra nümayəndəsi Ziyatxan Rzayev və kənd bələdiyyəsinin sədri Kommunalı Nəsibovla birlikdə şəhidin doğulduğu evin həyətinə gəldik. Bizi qarşılayan şəhidin atası Məhəmməd Əliyevin üzündən dərd-kədər yağırdı. Söhbətə başlamaq üçün nə qədər çətinlik çəksəm də müsahibəyə Orxanın arzularından başladım.

**- Orxan gələcəkdə hansı peşə sahibi olmaq istəyirdi?**

- Oğlum polis peşəsini çox sevirdi. Arzusu da yol polisi olmaq idi. Elə bu istəklə də IX sinfi qurtarandan sonra Bakı Texniki Kollecinə daxil oldu. Burada yol hərəkətinin təşkili fakültəsində oxuyurdu. Təhsilni başa vurduqdan sonra hərbi xidmətə yola düşdü. Heç diplomunu da ala bilmədi. "Sağlıq olsun əsgərlikdən qayıdanda alaram" - deyirdi.



**- Orxan nə vaxt hərbi xidmətə getmişdi?**

- Elə təhsilini bitirən kimi hərbi xidmətə yollandı. 27 iyul 2015-ci ildə əsgərliyə getdi. Bu, onun evdən axrıncı gedişi idi. Hərbi xidmətini Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə edirdi. Xidmətindən çox razı idi. "Burada hər şey yaxşıdı. Məndən nigaran olmayın", - deyirdi.

Məhəmməd başını yerə tikib yavaş-yavaş danışırdı: Oğlunun xarakteri haqqında söz düşəndə isə dedi:

- Orxan xaraktercə çox prinsipial idi. Qarşısına qoyduğu məqsədə çatmaq üçün əlindən gələni edərdi. Mən həmişə ona tapşırırdım ki, düşmənlə üzbəüz mövqelərdəsən, ehtiyatlı ol, özünü qoru. Cavabında mənə deyirdi ki, güllə bir dəfə atılır ata, onu da bilmək olmaz. Həm də gərək güllədən qorxmayasan. Bir də ki, qismətdə nə varsa, o da olacaq. Axı, necə biləsən ki, ölüm hardadır...

Sözün bu yerində şəhidin anası Şəfiqə xanım gözləri dolmuş halda bizə yaxınlaşdı, lakin kədərli olduğundan heç nə danışa bilmədi. Elə mən də ürək edib ondan heç nə soruşmadım.

Yaranmış sükutu Məhəmməd pozdu. Orxan haqqında bildiyi sonuncu sözləri danışdı. Bu, həm də mənim verəcəyim sualın cavabı idi.

- Oğlumla sonuncu dəfə ölümündən bir gün, daha doğrusu bir neçə saat qabaq danışdım. Onu serjant olmaq üçün kursa aparmışdılar. Həmin gün kursdan qayıtmışdı. Aprelin 1-də axşamüstü axrıncı dəfə mənə zəng elədi:

- Ata, mən öz yerimə, Tərtərə gəldim. Narahat olma hər şey yaxşıdır. Bu, onun mənə dediyi sonuncu sözlər idi. Bir daha oğlumun səsini eşitmədim. Ertəsi gün isə ölüm xəbəri gəldi.

Bu yerdə Məhəmmədin sözləri qırıldı. Danışığını göz yaşları əvəz elədi. Amma nə qədər kədərli olsa da, nə qədər ağlasa da qəlbində Vətən sevgisi, torpaq məhəbbəti onun bu qəminə üstün gəldi.

- Təki Vətən sağ olsun, - dedi.

Söhbətin bu yerində həyətdə gənc bir oğlan gördüm. Şəhidin qardaşı Sərxandır, - dedilər. O, qardaşının şəklini gətirib bizə təqdim elədi. Bu yeniyetmənin gözlərində kədər qarışıq bir qürur hissi də vardı. Qardaşının şəklini qucağına bərk-bərk sıxmışdı. Bu onun sonuncu təsəllisi idi. Şəkilin surətini çəkmək istəyəndə:

- Elə mənim şəklimi də qardaşımla bərabər çəkin, - dedi. Bu, onun qardaş məhəbbətindən, qardaş istəyindən irəli gəlirdi. Sərxanın istəyini dediyi kimi də yerinə yetirdim.

Növbəti sualım nə qədər ağır olsa da atasından soruşdum:

**- Orxan hansı şəraitdə həlak olub?**

- Oğlum sərrast atıcı idi. Həlak olan günü ermənilər bizim mövqelərimzə atəş açmağa başlayıblar. Komandirin dediyinə görə Orxan 5 erməni öldürüb. Amma özü də elə döyüşdə, səngərdə yaralanıb. Tank mərmisindən aldığı qəlpə yarası çox ağır olduğundan elə səngərdəcə keçinib.

**- Bəs, bu ağır xəbəri kimdən eşitdin?**

- Aprelin 2-də günortadan sonra kənd icra nümayəndəliyindən zəng edib mənə dedilər. Onlara da komissarlıqdan məlumat veriblərmiş. Eşidən kimi dünya başıma hərləndi.

Söhbət zamanı M.Əliyev ölkə rəhbərliyinə, Müdafiə Nazirliyinə, eləcə də rayon rəhbərliyinə minnətdarlıq etməyi də unutmadı.

- Sağ olsunlar, - dedi. - Bizə hər cür qayğı göstərirlər. Hamıdan razıyıq.

Söhbətimiz uzandıqca uzanırdı. Amma mən həyətdə hüzür çadırının baş hissəsindən üçrəngli Azərbaycan bayrağı ilə yanaşı asılmış şəhid Orxan Əliyevin şəklindən gözümü çəkə bilmirdim. Fikrimdən bu sözlər gəlib keçir:

Vətən sənə oğul dedi...

**Elçin İSMAYIL**

## VƏTƏN SƏNİ UNUTMAZ

***Xalqımızın igid oğlu Elvin Namazovun əziz xatirəsinə ithaf edirəm***

Qəhrəmanım, əməlinlə ucaldın,
Babaların qeyrətindən güc aldın.
Hər bir zaman düşmənimdən bac aldın,
Onu bil ki, getdiyin yol qırılmaz!
Vətən oğlu, Vətən səni unutmaz!

Çıxdığın el ululardan uludur,
Tutduğun yol qoç igidlər yoludur.
Ürəyində Vətən eşqi doludur,
Etibarın, düz ilqarın pozulmaz!
Vətən oğlu, Vətən səni unutmaz!

Parlaq günəş, işıq saçan ay oldun,
İgidimsən, igidlərə tay oldun.
Məqamında bir gərilmiş yay oldun,
Atdığın ox heç hədəfdən yayınmaz!
Vətən oğlu, Vətən səni unutmaz!

İgid bala, çox mərdliklə vuruşdun,
Ölməz oldun, ölməzliyə qovuşdun.
Sən şəhidlik dərgahına yetişdin,
"Səd mərhaba" deyən dillər unutmaz!
Vətən oğlu, Vətən səni unutmaz!

Ata-anan toxdaq gəzsin elində,
Millətimin Elvin bitsin dilində.
El deyəcək, şanlı zəfər ilində,
Bu dastanın əbəs yerə yazılmaz!
Vətən oğlu, Vətən səni unutmaz!

**Musa VƏLİYEV,**
**Qazax Dövlət Sosial İqtisad Kollecinin baş müəllimi**

## AĞLAMA

***Şəhid, baş leytenant Elvin Namazovun xatirəsinə ithaf edirəm***

Qardaş qisasın almışam,
Şəhidliyə ucalmışam.
Bayrağıma sarılmışam,
Ana, ağlama, ağlama.

"Günahım" var yar yanında,
İgid qanı var qanımda.
Tək qaldı heyif yarım da,
Yarım, ağlama, ağlama.

Qan töküb zəfər çalmışam,
Nə yaxşı ki, mən varmışam.
Lələtəpəni almışam,
Elim, ağlama, ağlama.

Qolum qılınc, sinəm qalxan,
Elimə dayanıb arxam.
Azəriyəm, mətin xalqam,
Turan, ağlama, ağlama.

Çox olub igidim. ərim,
Bu da növbəti zəfərim.
Elvin göstərdi hünərin,
Vətən, ağlama, ağlama.

**Asimə HÜSEYN**


**Baş redaktor:**
**ELÇİN İSMAYIL**

TƏSİSÇİ:
QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN:
QAZAX ŞƏHƏRİ,
H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB33010019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ: 3000

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "SQ" mətbəəsində çap edilib.
*Fotolar: Salmanındır.*